# Azərbaycanın Britaniyadakı səfirinin "The Guardian" qəzetində ölkəmiz haqqında qərəzli fikirlərə cavab məktubu dərc olunub



Bu günlərdə Böyük Britaniyanın "The Guardian" qəzetində erməni aktivist Simon Mğakyanın milli mədəni irsimiz ilə bağlı həqiqətə uyğun olmayan məktubu dərc edilmişdi. Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadənin qəzetdə aktivistin təxribat dolu fikirlərinə cavab məktubu dərc olunub.

Səfir qeyd edir ki, erməni aktivistin dünya mədəni irsinin qorunmasından danışaraq Azərbaycan tərəfini günahlandırması olduqca absurddur. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarımızda etnik təmizləmə siyasəti apararaq illərdir mədəni və tarixi irsimizi silməyə çalışan məhz Ermənistan tərəfidir. Ermənistan işğalçı əməllərini vəhşicəsinə və zorakılıqla həyata keçirir. Britaniyalı səyyah George Mitşell Ağdamı ziyarət edərkən buranı "ruhlar şəhəri" adlandırıb və bölgənin təbiətinin, mədəni irsinin vəhşicəsinə məhv edildiyini yazıb. Ermənistan beynəlxalq təşkilatlar tərəfindən bölgədə araşdırılma aparılmasından imtina edib.

Azərbaycan bütün dini və etnik azlıqların tarixi və mədəniyyətinə hörmətlə yanaşır və bununla fəxr edir. Bunun ən gözəl nümunəsi bizə qarşı düşmənçilik siyasəti yeritməsinə baxmayaraq, erməni kilsəsinin Bakı şəhərində illərdir mədəniyyət nümunəsi kimi saxlanılmasıdır.

***Orxan İSMAYILOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*London*